***Azərbaycan Silahlı Qüvvələrinin son günlərdə möhtəşəm qələbələr qazanması, dövlət bayrağımızın işğaldan azad olunmuş torpaqlarda dalğalanması iqtidarla xalqımızın birliyinin nəticəsidir. Tam qətiyyətlə deyə bilərik ki, bu birlik tezliklə bütün torpaqlarımızın işğalçılardan təmizlənməsinə, müharibədən sonra şəhərlərin, kəndlərin bərpasına gətirib çıxaracaq. Bu gün hər bir vətəndaşımız müsəlləh əsgərdir, Ali Baş Komandanın çağırışlarına anında cavab verməyə hazırdır. Təbii ki, belə bir dövrdə ali təhsil müəssisələrinin də üzərinə böyük vəzifələr düşür: tələbələrin vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin Vətənin çağırışlarına vaxtında cavab verməsi məhz məktəblərdə aparılan düzgün təbliğat işlərindən çox asılıdır. Bakı Slavyan Universitetinin elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzovla söhbətimiz də bu sahədə görülən işlərlə bağlıdır.***

# Gənclərimizdə vətənpərvərlik ruhu yüksəkdir



***– Rafiq müəllim, universitetinizin kollektivinin son hadisələrə münasibətini öyrənmək istərdik.***

– Bu gün universitetimizin hər bir müəllimi, texniki işçisi, tələbəsi özünü əsgər hesab edir. Təxminən 30 ildən sonra hərbçilərimizin şücaəti və qəhrəmanlığı sayəsində torpaqlarımızın işğaldan azad edilməsi, dövlət bayrağımızın yenidən Azərbaycanın işğaldan azad olunmuş şəhər və kəndlərində dalğalanması bütün xalqımızda yüksək əhvali-ruhiyyə, qələbəyə güclü inam yaradıb. Ali Baş Komandanın çağırışı ilə minlərlə azərbaycanlı gənc bu gün könüllü şəkildə cəbhəyə yola düşməyə hazırdır. Hətta, birinci Qarabağ savaşında iştirak etmiş yaşlı müəllimlərimiz də bu günlərdə cənab Ali Baş Komandana müraciət edərək öz təcrübələrini, bilik və bacarıqlarını ön cəbhədə göstərməyə hazır olduqlarını bildirmişlər.

Ümumiyyətlə, Bakı Slavyan Universitetinin müəllim, tələbə və məzunları Vətən uğrunda gedən bütün döyüşlərdə həmişə fərqləniblər. 1991-1992-ci illərdə universitetimizin müəllimləri Sadir Məmmədov, Adil Əliyev, Babaşah Babayev, Nəsib Cəbrayılov, İbrahim Quliyev, Zoya Cəbrayılova və digərləri ön cəbhədə vuruşublar.



Altı məzunumuz birinci Qarabağ müharibəsində şəhid olub.

Məzunumuz Vüqar Süleymanov isə 2016-cı ildə Lələtəpə uğrunda gedən döyüşlərdə həyatını qurban verib. BSU-nun daha bir tələbəsi bu günlərdə şəhidlik məqamına yüksəlib. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların qəhrəmanlığı universitetimizin tələbələri üçün böyük örnək olub və olacaq. BSU-nun yüzlərlə yetirməsi bu gün ön cəbhədədir.

***– Sizcə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin kökünü harada axtarmaq lazımdır?***

– Bu, bəlli tarixdir. XX əsrə qədər ermənilərin Qafqazda dövlət yaratmaq niyyətləri olmayıb. Lakin çar imperiyası dağılandan sonra planlarını dəyişiblər, Cənubi Qafqazda dövlət yaratmaq planını işə salıblar. 1918-ci ildə Ermənistan Cümhuriyyəti elan olunsa da, onun paytaxtı olmayıb. Cənab Prezidentin qeyd etdiyi kimi, biz müstəqilliyimizi bərpa əldə edərkən də Ermənistanın Azərbaycana təcavüzü və Azərbaycanın daxilində gedən çarpışmalar böyük böhrana səbəb oldu. Yalnız ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət sabitləşdi və Azərbaycan inamlı inkişaf yoluna qədəm qoydu.

Dağlıq Qarabağ münaqişəsi çox ciddi məsələdir və illərdir ki, Azərbaycan xalqı bununla bağlı ciddi problemlər yaşayır. 1923-cü ildə Dağlıq Qarabağa muxtar vilayət statusunun verilməsi həmin ərazidə yaşayan erməni əhalisini zaman-zaman yeni iddialarla çıxış etməyə sövq edib. Ermənilər bütün dövrlərdə münasib məqam yetişən kimi Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırıblar. 1988-1993-cü illər arasında yaranmış böhranlı vəziyyətdən istifadə edən ermənilər torpaqlarımızın 20 faizini işğal ediblər. Ancaq bu gün Azərbaycan dövləti çox qüdrətlidir, güclü ordumuz var, ölkəmiz öz torpaqlarının bir qarışının belə düşmən əsarətində qalmasına yol verməyəcək. Hər gün xalqımız Ali Baş Komandandan yeni-yeni torpaqların azad olunması xəbərini gözləyir və eşidir.

***– Bəs beynəlxalq təşkilatlar məsələyə nədən belə ikili münasibət göstərir?***

– Əvvəla, qeyd edim ki, BMT Təhlükəsizlik Şurasının 5 üzvündən 3-ü ATƏT-in Minsk qrupunun həmsədrləridir. Biz müharibə başlanan gündən həmin dövlətlərin problemə ikili standartlarla yanaşdığını aydın gördük. Azərbaycanın haqlı işini müdafiə edən yoxdur. Onlar illər boyu hər görüşdə "tərəflər hərbi gücdən istifadə etməməlidir" deyiblər. Tərəflər dedikdə, təcavüzə Azərbaycan məruz qalıb, deməli, onlar Azərbaycanın əlini-qolunu bağlayıb, işğala şərait yaradıblar. Azərbaycan dövlətinin öz ərazi bütövlüyünü qorumaq hüququnu tanımaq istəməyiblər.

***– Müharibənin getdiyi dövrdə Ermənistanın hərbi birləşmələri beynəlxalq konvensiyalara məhəl qoymadan, mülki əhalini top və raket atəşinə tuturlar...***

– Cənab Prezidentin dediyi kimi, onlar döyüş meydanında məğlubiyyətə uğrayanda mülki şəxslərə atəş açırlar. Birinci Qarabağ savaşında Xocalı soyqırımını törədənlər bu gün də həmin cinayəti təkrar etməyə çalışırlar. Təsəvvür edin, Mingəçevir, Bərdə, Ağdam, Göranboy və digər rayonlara yüzlərlə mərmi düşüb. Gəncədə, Tərtərdə törədilənlər ermənilərin yırtıcı xislətini bir daha təsdiqləyir. Düşmənin bu cinayətləri törətməkdə əsas məqsədi insanlar arasında təşviş, qorxu yaratmaq, onları yerindən, yurdlarından uzaqlaşdırmaqdır. Lakin xalq öz Ali Baş Komandanına, ordusuna inandığından erməninin heç bir planı baş tutmur.

***– Cənab Prezident işğaldan azad olmuş torpaqlarımızda tezliklə abadlıq və quruculuq işlərinin aparılacağını bildirib...***

– Erməni işğalçıları təkcə insanları deyil, bu illər ərzində tariximizi, mədəniyyətimizi, qədim abidələri, bir sözlə, bizimlə bağlı olan hər şeyi məhv etməyə çalışıblar. Meşələri yandırıb, çayların qarşısını kəsib, yeraltı, yerüstü sərvətləri talayıblar. Lakin döyüşdə misilsiz şücaət göstərən vətəndaşlarımız tezliklə onların hamısını bərpa edəcək. İnşallah, tezliklə Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşa da, digər işğal altındakı torpaqlarımız da azad ediləcək, məktəblər, səhiyyə müəssisələri, digər dövlət strukturları fəaliyyətə başlayacaq. Prezidentin göstərişi ilə artıq Suqovuşanda yeni asfalt yolun çəkilişinə başlanması gələcək abadlaşdırmanın ilk müjdəsidir.

Biz azad edilmiş şəhər və kəndlərimizi yenidən tikəcəyik. Bunu Prezidentimiz İlham Əliyev də çıxışlarında dəfələrlə vurğulayıb. Mən inanıram ki, biz tezliklə qələbə çalacağıq. Onsuz da Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

***Müsahibəni qələmə aldı:***
***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***